# Prezident Kitabxanasının "Zəngəzur" elektron resursu

**Azərbaycanlıların qədim dövrlərdən etibarən yaşadıqları Zəngəzur bölgəsi zəngin tarixi keçmişə malikdir. XX əsrin əvvəlində Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsi nəticəsində Naxçıvanın Azərbaycanın əsas hissəsindən ayrı salınması ilə xalqımıza qarşı tarixi ədalətsizlik edilib. Ümummilli Lider Heydər Əliyev çıxışlarında bu tarixi ədalətsizliyə qarşı öz münasibətini bildirmişdir. Prezident İlham Əliyev dövlətin strateji hədəfinin tarixi torpaqlarımıza sahib çıxılması olduğunu vurğulayaraq demişdir: "Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulub. Bu, bizim tarixi dədə-baba torpaqlarımızdır. Bütün toponimlər Azərbaycan mənşəlidir. Bunu bilmək üçün XX əsrin əvvəllərində çar Rusiyasında tərtib olunan xəritələrə baxmaq kifayətdir. Orada bir dənə də erməni toponimi tapmaq mümkün deyil. İndiki Ermənistanda bütün kəndlərin 80 faizi Azərbaycan mənşəli adlar daşıyır. Yəni, bu, bizim tarixi torpaqlarımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Başqa cür mümkün deyil. Bu, bizim strateji hədəfimizdir və biz bu hədəfə çatmaq üçün çalışırıq, çalışacağıq. İqtisadi, siyasi, hərbi gücümüz, demoqrafik vəziyyətimiz bunu deməyə əsas verir".**




Şərqi və Qərbi Zəngəzura ayrılan vahid Zəngəzurun bu günümüzədək bütün dövrlərini əhatə edən elektron resurs Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının əməkdaşları tərəfindən hazırlanıb.

Kitabxanadan bildirilib ki, Azərbaycan, ingilis və rus dillərində hazırlanan bu resursun "Ümumi məlumat" fəslində Zəngəzurun tarixi coğrafiyası, əhalisi, oykonimləri, oronimləri, hidronimləri, flora və faunası, təbii ehtiyatları haqqında mətnlər ayrı-ayrı başlıqlar altında təqdim edilir. Bu fəsildə, həmçinin qədim dövrlərdən bu günədək Zəngəzuru əhatə edən "Xəritələr" əks etdirilir. Həmin xəritələrdə Zəngəzurdakı toponimlərin azərbaycanlılara məxsus olduğu əyani şəkildə görünür.




Kəlbəcər rayonunda Xudavəng alban məbədi

Elektron resursun "Tarix" fəslində "Zəngəzur qədim və orta əsrlərdə", "Rusiya işğalı dövrü", "1905-1906-cı illər qırğınları", "1918-1920-ci illər qırğınları", "Qərbi Zəngəzurun Ermənistana verilməsi", "Repressiya və deportasiya illəri", "1988-1989-cu illər deportasiyası", "Şərqi Zəngəzur işğal illərində" başlıqlı mətnlər istifadəçilərə təqdim edilir.

44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad edilən Şərqi Zəngəzur rayonları haqqında, yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonunda həyata keçirilən bərpa və quruculuq işləri haqqında məlumatlar "Azad Şərqi Zəngəzur" bölməsində xronoloji ardıcıllıqla öz əksini tapır.

Elektron resursun "Tarixi-memarlıq abidələri" bölməsində həm Şərqi Zəngəzurda, həm də Qərbin Zəngəzurda mövcud olan tarixi-memarlıq abidələri haqqında şəkilləri də daxil olmaqla dolğun məlumat verilir.

Kitabxananın fonduna daxil olan Zəngəzur haqqında kitab və məqalələrin elektron versiyaları "E-resurslar" fəslində əks etdirilir.

Resursun "Biblioqrafiya" bölməsində Zəngəzur haqqında kitabların və məqalələrin, habelə ayrı-ayrı məcmuələrdə dərc edilən materialların biblioqrafik təsvirləri verilir.

"Fotoqalereya" bölməsində Zəngəzurun mənzərəli yerlərinin, erməni vandalları tərəfindən dağıdılmış memarlıq abidələrinin şəkilləri, habelə Şərq Zəngəzurda və Zəngəzur dəhlizində həyata keçirilən bərpa-quruculuq işlərini özündə əks etdirən fotolar xronoloji ardıcıllıqla təqdim edilir.

*https://zangazur.preslib.az* domenində yerləşdirilən "Zəngəzur" elektron resursu mütəmadi olaraq yenilənir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika.- 2022.- 27 dekabr.- S.5.